15 (1372) 17-23 aprel 2025-ci il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## "GÜRCÜSTAN VƏ AZƏRBAYCANIN BİRGƏ İCRA ETDİKLƏRİ LAYİHƏLƏR BÖYÜK ÖNƏM DAŞIYIR"



"Əsrlər boyu bizim xalqlarımız sülh, mehribanlıq, qardaşlıq şəraitində yaşamışlar, indi də bu, belədir. Dövlətlərarası münasibətlər yüksək səviyyədədir".
Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev Gürcüstanın Prezidenti Mixeil Kavelaşvili ilə mətbuata bəyanatında səsləndirib.
**Dövlətimizin başçısı qeyd edib:** "Gürcüstan və Azərbaycan birgə bir çox önəmli layihələri icra edirlər və bu layihələr həm ölkələrimiz, xalqlarımız üçün, həm də daha böyük coğrafiya üçün böyük önəm daşıyır".
**O, deyib:** "Təbii olaraq siyasi əlaqələr inkişaf edir, yüksəksəviyyəli təmaslar müntəzəm xarakter daşıyır, siyasi dialoq fəaldır. Yəni, iki dost, qardaş ölkə, sözün əsl mənasında, bir-birinə çox bağlıdır və beynəlxalq təşkilatlarda da daim bir-birini dəstəkləyir. Azərbaycan və Gürcüstanın birgə həyata keçirdiyi neft-qaz layihələri, neft-qaz kəmərləri, nəqliyyat-kommunikasiya layihələri, sözün əsl mənasında, böyük əhəmiyyət daşıyan layihələrdir".

## "AVROPANIN ENERJİ TƏHLÜKƏSİZLİYİNİ AZƏRBAYCANSIZ, GÜRCÜSTANSIZ TƏSƏVVÜR ETMƏK MÜMKÜN DEYİL"

"Bu gün əgər biz Avropanın enerji təhlükəsizliyi haqqında danışırıqsa, bunu Azərbaycansız, Gürcüstansız təsəvvür etmək mümkün deyil".
Bu sözləri Azərbaycan Prezidenti İlham Əliyev Gürcüstanın Prezidenti Mixeil Kavelaşvili ilə mətbuata bəyanatında deyib.
***"Hazırda Gürcüstan daxil olmaqla, Azərbaycan 12 ölkəyə təbii qaz ixrac edir və bu ixrac Gürcüstan vasitəsilə həyata keçirilir"***, - deyən dövlətimizin başçısı vurğulayıb ki, nəqliyyat-kommunikasiya sahəsində əldə edilmiş nailiyyətlər, yeni inşa olunmuş dəmir yolları, limanlar həm Azərbaycanda, həm Gürcüstanda böyük sinergiya yaradıb və Orta Dəhlizin ayrılmaz hissəsinə çevrilib.

## "GÜRCÜSTAN HƏMİŞƏ AZƏRBAYCANIN ƏRAZİ BÜTÖVLÜYÜNÜN VƏ SUVERENLİYİNİN GÜCLÜ TƏRƏFDARI OLUB"

"Gürcüstan və Azərbaycan bir-birinin suverenliyini və ərazi bütövlüyünü qətiyyətlə dəstəkləyir və buna görə cənab Prezidentə bir daha təşəkkür etmək istərdim".
Bu sözləri Gürcüstanın Prezidenti Mixeil Kavelaşvili Azərbaycan Prezidenti İlham Əliyev ilə mətbuata bəyanatında deyib.
Mixeil Kavelaşvili bildirib ki, Gürcüstan həmişə Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin güclü tərəfdarı olub.
***"Təəssüf ki, son vaxtlar ölkələrimiz dəfələrlə ikili standartların və xarici qüvvələrin daxili işlərə müdaxiləsinin obyektinə çevrilib. Çoxsaylı səylərə baxmayaraq, biz bu təhlükələri qətiyyətlə aradan qaldırırıq, regionun təhlükəsizliyini və sabitliyini təmin edirik. Heç bir üçüncü ölkə və ya təşkilatın xalqlarımız üçün nəyin yaxşı olduğunu bizdən yaxşı bilməsi mümkün deyil. Şadam ki, Azərbaycan ilə Gürcüstan arasında ümumi maraqların müdafiəsi sahəsində əməkdaşlıq intensivləşib"***, - deyə o əlavə edib.

## "ÇOXƏSRLİK DOSTLUQ BİZƏ REGİONUMUZUN ROLUNU DÜZGÜN MÜƏYYƏNLƏŞDİRMƏYƏ İMKAN VERİB"

Ölkələrimiz arasında mövcud "olan xüsusi, çoxəsrlik dostluq və ümumi düşünülmüş siyasət bizə regionumuzun rolunu düzgün müəyyənləşdirməyə imkan verib".
Bu barədə Gürcüstanın Prezidenti Mixeil Kavelaşvili Azərbaycan Prezidenti İlham Əliyev ilə mətbuata bəyanatında bildirib.
Gürcüstanın Prezidenti qeyd edib: ***"Əminəm, bizim ümumi gələcəyimizə uğurlu, iqtisadi cəhətdən güclü və firavan Cənubi Qafqaz regionu daxildir ki, burada xalqlarımız dırnaqarası liberal dəyərlərlə yox, öz adət və ənənələri ilə birgə yaşaya biləcəklər"***.

* * * *

Aprelin 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Gürcüstanın Prezidenti Mixeil Kavelaşvili ilə nahar əsnasında geniş tərkibdə görüşü olub.

## ÖLKƏMİZDƏ ƏMƏK, MƏŞĞULLUQ VƏ ƏHALİNİN SOSİAL RİFAH HALININ YAXŞILAŞDIRILMASI İSTİQAMƏTİNDƏ İŞLƏR UĞURLA GEDİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 14-də Beynəlxalq Əmək Təşkilatının Baş direktoru Jilber Hunqbonu qəbul edib.
Görüşdə dövlətimizin başçısının rəhbərliyi ilə ölkəmizdə əmək, məşğulluq, habelə əhalinin sosial rifah halının daha da yaxşılaşdırılması istiqamətində görülən işlər və əldə olunan uğurlar qeyd edilib.
Prezident İlham Əliyev torpaqlarımızın işğal altında olduğu dövrdə bütün infrastrukturun tamamilə məhv edildiyini xatırladaraq vurğulayıb ki, işğaldan azad olunmuş torpaqlarımızda aparılan bərpa və quruculuq işləri ilə yanaşı, həmin ərazilərə qayıdan insanların işlə təmin edilməsi ən vacib məsələlərdən biridir. Dövlətimizin başçısı bununla bağlı Beynəlxalq Əmək Təşkilatı ilə əməkdaşlığın əhəmiyyətini vurğulayıb.

## AZƏRBAYCANLA TÜRKİYƏ ARASINDA QARDAŞLIQ VƏ MÜTTƏFİQLİK MÜNASİBƏTLƏRİ UĞURLA İNKİŞAF EDİR




Aprelin 11-də Antalyada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan ilə görüşü keçirilib.
Görüşdə Azərbaycanla Türkiyə arasında qardaşlıq və müttəfiqlik münasibətlərinin bütün sahələrdə uğurla inkişafından məmnunluq ifadə olunub, əlaqələrimizin perspektivləri müzakirə edilib.
Dövlətimizin başçısı Antalya Diplomatiya Forumuna dəvətə görə Türkiyə Prezidentinə təşəkkürünü bildirərək, bu tədbirin beynəlxalq gündəlikdə duran vacib məsələlərin müzakirəsi üçün dünyanın aparıcı platformalarından biri olduğunu deyib. Söhbət zamanı dövlət başçıları ikitərəfli münasibətlər, Cənubi Qafqaz və Yaxın Şərq bölgələrində vəziyyətlə bağlı fikir mübadiləsi aparıblar.

## ANTALYA DİPLOMATİYA FORUMUNDA QLOBAL ÇAĞIRIŞLARLA BAĞLI MÜZAKİRƏLƏR APARILIB

Aprelin 11-də Türkiyənin Antalya şəhərində Antalya Diplomatiya Forumunun açılış mərasimi keçirilib.
Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak ediblər.
Tədbirdə əvvəlcə Türkiyənin xarici işlər naziri Hakan Fidan giriş nitqi ilə çıxış etdi. O, Forumun əhəmiyyətini vurğuladı, tədbirdə çox nüfuzlu qonaqların iştirak etdiyini deyib.
Sonra Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Türkiyə dövlətinin başçısı hazırda dünyada mövcud olan problemlərin müzakirəsinin vacibliyini vurğulayaraq, bu baxımdan Forumun roluna toxunub.

## ADF2025-DƏ TÜRK DÖVLƏTLƏRİ TƏŞKİLATININ ÖZÜNƏMƏXSUS ƏMƏKDAŞLIQ MODELİ MÜZAKİRƏ OLUNUB




Aprelin 12-də IV Antalya Diplomatiya Forumu (ADF2025) çərçivəsində "Türk Dövlətləri Təşkilatı: Özünəməxsus bir əməkdaşlıq modeli" mövzusunda panel iclas keçirilib.
Tədbirdə Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov, Türk Dövlətləri Təşkilatının (TDT) Baş katibi Kubanıçbek Ömüralıyev, TDT-nin Ağsaqqallar Şurasının sədri Binəli Yıldırım, Qazaxıstanın nəqliyyat naziri Marat Karabayev, Özbəkistan Ali Məclis Senatı sədrinin birinci müavini Sodiq Safoyev, Qırğızıstan Prezidentinin xüsusi nümayəndəsi, bu ölkənin xarici işlər nazirinin müavini Asein İsayev iştirak ediblər.
Kapadokya Universitetinin rektoru Hasan Ali Karasarın moderatorluğu ilə keçirilən paneldə Türk Dövlətləri Təşkilatı ölkələri arasındakı əməkdaşlığın ticarət, enerji, maliyyə, turizm, təhsil, mədəniyyət kimi mühüm sahələri əhatə etdiyi vurğulanıb.
Qeyd edilib ki, bu təşkilat İstanbulda keçirilən Zirvə görüşü ilə tamamlanaraq 170 milyondan artıq insanı əhatə edən coğrafiyanın hədəflərinə fokuslanıb.

## PREZİDENT İLHAM ƏLİYEVİN ADF2025-DƏ İŞTİRAKI TƏDBİRİN ƏHƏMİYYƏTİNİ DAHA DA ARTIRIR




"Türkiyədə keçirilən IV Antalya Diplomatiya Forumuna (ADF2025) nəzər saldıqda görürük ki, bu beynəlxalq tədbir hər il daha da təkmilləşir və qlobal gündəmdə baş verən demək olar ki, bütün mühüm prosesləri əhatə edir. Bu il Azərbaycan Prezidenti İlham Əliyevin forumda ilk dəfə iştirakı isə tədbirin əhəmiyyətini daha da artıran və sevindirici bir hadisə kimi qiymətləndirilir".
Bu fikirləri AZƏRTAC-a müsahibəsində Rusiyanın TASS informasiya agentliyinin baş direktorunun birinci müavini Mixail Qusman ifadə edib.
Tədbirin builki mövzusuna toxunan Qusman deyib: ***"Onlarla dövlət və hökumət başçısının, nazirlərin və diplomatların burada "parçalanan" dünyamıza töhfə vermək üçün çalışdıqlarını görmək sevindiricidir. Dünyada həllini gözləyən, hər birimiz üçün vacib məsələlərin gündəmə gətirilməsi tədbirin beynəlxalq əhəmiyyətinin göstəricisidir"***.
Bu gün ADF2025 çərçivəsində keçirilməsi nəzərdə tutulan "Cənubi Qafqazda regional əməkdaşlığa dair çağırışlar və fürsətlər" mövzusunda panel iclasına diqqət çəkən müsahib, Azərbaycan, Gürcüstan və Ermənistanın xarici işlər nazirlərinin bu müzakirələrdə iştirak edəcəyini vurğulayıb. O bildirib ki, bu kimi görüşlər regionda sülhün və sabitliyin bərqərar olunması baxımından xüsusi önəm daşıyır: ***"Bu iclasın keçirilməsi həm Antalya Diplomatiya Forumunun beynəlxalq əhəmiyyətini, həm də əhatə dairəsinin genişliyini nümayiş etdirir. Bugünkü dünyada diplomatiya və dialoq hər zamankından daha vacibdir"***.

# Ziyad Səmədzadə: Zəngəzur dəhlizi Azərbaycanı qlobal logistika mərkəzinə çevirəcək







***"Ulu Öndər Heydər Əliyev bütün fəaliyyəti dövründə Azərbaycanın ümumi inkişafı naminə böyük işlər görüb. Bu xüsusda bütün bölgələrimizlə yanaşı, Qarabağ və Şərqi Zəngəzurun da inkişafı hər zaman xüsusi ilə diqqət çəkib. Keçmiş sovet dövründə Qarabağ SSRİ miqyasında ən inkişaf etmiş regionlardan biri hesab edilirdi. Mixail Qorbaçov dövründə (1990-1991-ci illərdə SSRİ prezidenti olub) Qarabağın inkişafdan qalması ilə bağlı iddialar səslənirdi. Sonrakı dövrdə isə bunun nə məqsədlə edildiyi aydın oldu".***

Bu sözləri Teleqraf-a Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü, deputat Ziyad Səmədzadə deyib.

O bildirib ki, bu gün Prezident İlham Əliyev tərəfindən həyata keçirilən siyasət Azərbaycanın milli maraqlarına cavab verir: ***"Azərbaycan özünün ən güclü dövrünü yaşayır. Ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam təmin edilib. 2020-ci ilin 44 günlük Vətən müharibəsi və 2023-cü ilin 19-20 sentyabr tarixlərində həyata keçirilən lokal antiterror tədbirləri nəticəsində tarixi ədalət bərpa olunub. Hazırda Azərbaycanla Ermənistan arasında sülh müstəvisində müəyyən irəliləyişlər var. Dövlətimizin başçısı birmənalı şəkildə bəyan edib ki, yekun sülhün əldə edilməsi üçün Ermənistan konstitusiyasında Azərbaycana qarşı olan ərazi iddialarını ehtiva edən müddəalar aradan qaldırılmalıdır, eyni zamanda ATƏT-in Minsk Qrupundan imtina olunmalıdır. Azərbaycanın bu məsələdəki haqlı mövqeyi beynəlxalq hüquqa əsaslanır".***

Z.Səmədzadə sülhün əldə edilməsi, regional kommunikasiya xətlərinin açılması fonunda Cənubi Qafqazda formalaşacaq yeni canlanmaya diqqət çəkib: ***"Azərbaycanın yerləşdiyi əlverişli coğrafi mövqeyi onun üçün əlavə üstünlüklər qazandırır. Bu xüsusda ölkəmiz mühüm əlverişli yolların kəsişmə nöqtəsində yerləşir. Ona görə də dövlətimiz üçün nəqliyyat-logistika imkanları olduqca böyükdür. Sözsüz ki, Zəngəzur dəhlizinin açılması ilə Azərbaycan qlobal logistika mərkəzlərindən birinə çevriləcək. Eyni zamanda qədim İpək Yolunun bərpası ilə bağlı böyük işlər görülür. Bunun üçün Bakıda böyük liman açıldı, Ələt Azad İqtisadi Zonası yaradıldı. Məhz bu xət lə daşınan yüklərin də həcmi ildən-ilə artır. Əlavə olaraq Zəngəzur dəhlizinin işə düşməsi isə Qarabağ və Şərqi Zəngəzur üçün yeni imkanlar açmaqla yanaşı, region ölkələrinin də maraqlarına xidmət edəcək".***

Deputat bu gün Azərbaycanın Orta Dəhliz kimi qlobal bir layihəni təşviq etdiyini bildirib: ***"Ölkəmiz bu qlobal layihədə mühüm rola malikdir. Sözsüz ki, bu istiqamətdə olan gözləntilər çox böyükdür. Azərbaycan-Çin əlaqələrinin inkişafı da məhz qarşıya qoyulan hədəflərə çatmağa imkan yaradacaq. Bu məsələdə ölkəmizin üstünlüyü geniş imkanlar yaradır. Nəqliyyat-logistika mərkəzi kimi Azərbaycan Orta Dəhliz konsepsiyasında aparıcı mövqeyə malikdir".***

# Qarabağ və Şərqi Zəngəzur üzrə növbəti illərdə görüləcək işlər məlum olub

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyaları əsasında yaşayış və qeyri-yaşayış komplekslərinin inşası davam etdiriləcək.

Maliyyə Nazirliyindən Trend-ə verilən məlumata görə, bu əsasda bütün bölgə qabaqcıl standartlara uyğun sosial-iqtisadi və mədəni infrastrukturla tam təmin ediləcək və turizm infrastrukturu bərpa olunacaq.

Bildirilir ki, bununla yanaşı, bölgənin tranzit potensialından faydalanmaq üçün qabaqcıl infrastrukturun qurulması, "ağıllı" biznes modellərinin yaradılması və səmərəli bərpa olunan enerji mənbələrindən istifadə genişləndirilməklə "yaşıl enerji zonası" konsepsiyasının tətbiqi nəzərdə tutulur. Qeyd olunur ki, kommunal xidmətlər şəbəkəsi, xüsusilə tullantıların səmərəli idarə edilməsi sisteminin qurulması da nəzərdə tutulan tədbirlər sırasındadır.

***"Bölgənin ölkə iqtisadiyyatının tərkibinə reinteqrasiyası məqsədilə ixracyönümlü dəyər zənciri qurulacaq və dayanıqlı iş yerləri yaradılacaqdır. Faydalı qazıntı və mineral xammal mənbələri nəzərə alınmaqla iqtisadi fəaliyyətdə dəyər zənciri üzrə ixtisaslaşma təşviq ediləcək və mədənçıxarma sahəsində təbii ehtiyatlar dövlət-özəl tərəfdaşlığı çərçivəsində dövriyyəyə cəlb olunacaqdır. Rəqabətqabiliyyətli, qabaqcıl infrastrukturla təmin edilmiş aqrar istehsal və aqrar emal formalaşdırılacaqdır. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında turizm biznesi üçün cəlbedici, turistlər üçün əlçatan, unikal, keyfiyyətli və qiymət rəqabətli turizm xidmətləri təklif edən turizm destinasiyası olacaq",*** - məlumatda vurğulanıb.

***"İlkin mərhələdə, bərpa və quruculuq prosesinə paralel olaraq özəl layihələr dəstəklənməklə ticarət-xidmət-logistika mərkəzləri şəklində iqtisadi zonalar, müasir istehsal infrastrukturu olan sənaye parkları və məhəllələri yaradılacaq. İqtisadiyyatın sürətli bərpası və dayanıqlı inkişafı, o cümlədən rəqabətli istehsal və emal sahələrinin fəaliyyəti müasir infrastrukturla dəstəklənəcək. Prioritet sahələrdə sahibkarlara geniş çeşidli stimullar veriləcək, vergi-gömrük azadolmaları və güzəştli maliyyələşmə alətləri geniş tətbiq olunacaq, kreditlərin və investisiyaların sığortalanması mexanizmi yaradılacaq. Nəticədə ümumi məhsul buraxılışında, ixracda və məşğulluqda işğaldan azad edilmiş ərazilərin payı davamlı artacaq",*** - deyə məlumatda qeyd olunub.

# Azərbaycanın dövlət büdcəsinin gəlirləri 45 milyard manata yaxın proqnozlaşdırılır

2026-cı il üçün icmal büdcəsinin gəlirləri 2025-ci ilin təsdiq olunmuş göstəricisi ilə müqayisədə 935,6 milyon manat və yaxud 2,1 faiz çox olmaqla 44,886 milyard manat, ortamüddətli dövrün sonuna isə 7,057 milyard manat və yaxud 16,1 faiz çox olmaqla 51,007 milyard manat proqnozlaşdırılır.

Trend bu barədə Maliyyə Nazirliyinə istinadən xəbər verir.

***"Dövlət büdcəsinin gəlirləri əvvəlki illərin faktiki icra göstəriciləri 2026-cı il və sonrakı üç il üçün son makroiqtisadi proqnozlar (ÜDM və qeyri-neft/qaz ÜDM-in artım templəri, valyuta məzənnəsi, neft-qaz hasilatı, neft qiyməti və digər) əsasında, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 10 yanvar 2020-ci il tarixli 4 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət büdcəsinin gəlirlərinin, o cümlədən dövlət büdcəsinin qeyri-neft gəlirlərinin və dövlət büdcəsinin neft gəlirlərinin proqnozlaşdırılması" Qaydasına uyğun olaraq hər bir tədiyə növü üzrə ayrı-ayrılıqda hesablanmışdır",*** - deyə məlumatda qeyd edilib.

# Maliyyə Nazirliyi 2026-2029-cu illərdə neftin ixrac qiyməti ilə bağlı proqnozları açıqlayıb

İqtisadiyyat Nazirliyi tərəfindən cari ilin mart ayında təqdim olunan proqnozlara əsasən baza ssenaridə neftin bir barelinin orta illik ixrac qiyməti 2026-cı il üçün 65 ABŞ dolları və 2027-2029-cu illər üçün də eyni qalacağı proqnozlaşdırılır.

Trend bu barədə Maliyyə Nazirliyinə istinadən xəbər verir.

***"Məlumata görə, neft və qaz hasilatı üzrə sabitləşdirmə tədbirlərinin nəticəsi olaraq 2029-cu ildə neft və qaz hasilatının artacağı proqnozlaşdırılır. İqtisadiyyat Nazirliyinin təqdim etdiyi məlumatlara əsasən 2025-ci ildə neft hasilatının azalacağına baxmayaraq, qaz hasilatının artması sektorun inkişafına artırıcı təsir edəcəkdir. 2027-2029-cu illərdə neft və əmtəəlik qaz hasilatı (2029-cu il istisna olmaqla) üzrə azalmanın davam etməsi nəzərə alınaraq neft-qaz sektorunda azalma proqnozlaşdırılıb",*** - deyə məlumatda qeyd edilib.

# 2029-cu ildə orta illik inflyasiyanın 3,8% olacağı gözlənilir

İqtisadiyyat Nazirliyi tərəfindən beynəlxalq təşkilatların ərzaq və əmtəə qiymətləri ilə bağlı proqnozları, manatın məzənnəsinin sabitliyi, tənzimlənən qiymətlərin artırılmaması fərziyyəsi, eləcə də antiinflyasiya tədbirləri nəzərə alınaraq baza ssenaridə cari il üzrə 5,1% proqnozlaşdırılan orta illik inflyasiyanın tədricən azalaraq 2029-cu ildə 3,8% olacağı gözlənilir. Proqnozlara əsasən, ortamüddətli dövrdə əhalinin gəlirlərinin artaraq 2029-cu ildə 123 milyard manata, xərclərinin isə 119,4 milyard manata qədər yüksəlməsi gözlənilir. İqtisadiyyat Nazirliyi tərəfindən təqdim olunmuş makroiqtisadi proqnozlarda 2026-2029-cu illər üzrə manatın ABŞ dollarına qarşı məzənnəsi sabit, cari ilin səviyyəsində götürülüb.

# Azərbaycandan 385 milyon kVt·st elektrik enerjisi ixrac edilib

Cari ilin yanvar-mart ayları ərzində Azərbaycandan 385 milyon kVt·st elektrik enerjisi ixrac edilib.

Məlumata görə, elektrik enerjisinin ixracı ötən ilin eyni dövrü ilə müqayisədə 24,7 milyon kVt·st və ya 6,9% artıb.

Belə ki, 2024-cü ilin birinci rübündə Azərbaycandan 360,3 milyon kVt·st elektrik enerjisi ixrac edilib.

Qeyd edək ki, cari ilin yanvar-mart ayları üzrə operativ məlumatlara əsasən, Azərbaycanda elektrik enerjisinin istehsalı 7,172 milyard kVt·st olub. Elektrik enerjisinin istehsalı ötən ilin eyni dövrü ilə müqayisədə 42,5 milyon kVt·st və ya 0,6% artıb. Belə ki, 2024-cü ilin birinci rübündə Azərbaycanda elektrik enerjisinin istehsalı 7,129 milyard kVt·st olub.

# 2026-cı ildə dövlət büdcəsi kəsirinin ÜDM-ə nisbəti açıqlanıb

Dövlət büdcəsi kəsirinin ÜDM-ə nisbətinin 2026-cı ildə 2,2 faiz təşkil edəcəyi, 2029-cu ildə isə 1,3 faizə enəcəyi proqnozlaşdırılır.

Trend bu barədə Maliyyə Nazirliyinə istinadən xəbər verir.

Məlumata görə, 2026-cı ildə dövlət büdcəsi kəsirinin yuxarı həddi 2,979 milyard manat, növbəti üç ildə isə müvafiq olaraq 2,760, 2,544 və 2,144 milyard manat məbləğində proqnozlaşdırılır. ***"Dövlət büdcəsi kəsirinin əvvəlki illərdə olduğu kimi, özəlləşmədən daxilolmalar, borclanma hesabına daxilolmalar (xarici və daxili) və vahid xəzinə hesabının qalığı hesabına maliyyələşdirilməsi nəzərdə tutulur",*** - deyə məlumatda qeyd edilib.

# Növbəti 5 il ərzində azad olunmuş ərazilərə sərf olunacaq vəsaitin məbləği açıqlanıb

2026-2029-cu illərdə işğaldan azad olunmuş ərazilərin yenidənqurulmasına 16 milyard manat xərclənəcək.



Trend Maliyyə Nazirliyinə istinadən xəbər verir ki, işğaldan azad olunmuş ərazilərin yenidənqurulması və bərpası ilə bağlı xərclərin əsaslı xərclərdə xüsusi çəkisi 30,6 faizdir.

***"2020-2024-cü illərdə işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün dövlət büdcəsindən cəmi 17,6 milyard manat, o cümlədən 2024-cü ildə 5,3 milyard manat vəsait ayrılıb, 2025-ci ildə bu məqsələ 4 milyard manat vəsait nəzərdə tutulub. Ötən ilin sonunadək işğaldan azad olunmuş ərazilərdə 10 mindən çox keçmiş məcburi köçkün evlərlə təmin edilmiş, onların sosial müdafiəsinin təmin edilməsi məqsədlərinə dövlət büdcəsindən müvafiq vəsait yönəldilib",*** - məlumatda qeyd edilib.

# Manatın məzənnəsi 2030-cu ilə qədər sabit qalacaq

İqtisadiyyat Nazirliyi tərəfindən təqdim olunmuş makroiqtisadi proqnozlarda 2026-2029-cu illər üzrə manatın ABŞ dollarına qarşı məzənnəsi sabit, cari ilin səviyyəsində götürülüb.



Bu barədə Maliyyə Nazirliyindən bildirilib.

***"Proqnozlara əsasən ortamüddətli dövrdə əhalinin gəlirlərinin artaraq 2029-cu ildə 123 milyard manata, xərclərinin isə 119,4 milyard manata qədər yüksəlməsi gözlənilir",*** - deyə məlumatda qeyd edilib.

# Путевые заметки: белоруска о Баку и азербайджанском гостеприимстве




***Солнечный Азербайджан манит ароматом спелых гранатов, теплом и соленым бризом Каспийского моря. Это страна контрастов, где восточная сказка переплетается с западной культурой, а старинные постройки соседствуют со стеклянными небоскребами. Корреспондент БЕЛТА в отпуске посетила Азербайджан и с удовольствием делится своими впечатлениями: местные жители проявляют гостеприимство и искреннее радушие по отношению к белорусам, а отсутствие языкового барьера делает общение легким и непринужденным. Минск и столицу Азербайджана Баку связывают прямые авиарейсы. В аэропорту Гейдара Алиева самолет приземляется глубокой ночью.***

Неподготовленный турист может столкнуться здесь с некоторыми трудностями. Не секрет, что курсы обмена валют в аэропортах высокие, а выпить кофе и перекусить наверняка захочется. Для таких расходов нужна небольшая сумма наличности на руках. Для удобства дома можно оформить банковскую карточку с возможностью расчета за границей. Таким образом вы избавите себя от трудности брать большую сумму наличности в долларах для обмена ее на азербайджанские манаты. Рассчитаться карточкой можно в отеле, ресторанах, музеях и даже у лавочников в Старом городе Баку. Уже в аэропорту вы получите первые впечатления об азербайджанском гостеприимстве. Увидев на вашем лице замешательство, к вам обязательно кто-то подойдет, чтобы уточнить, нужна ли помощь.

Настрой был прочувствовать весь колорит путешествия. С такси и трансфером теряется доля эмоций. Ведь надо еще разобраться с тем, как купить билет на автобус-экспресс от аэропорта до столицы. В общественном транспорте Баку действует карта BakiKart. Ее можно приобрести только за наличные деньги в билетомате, а затем пополнить на небольшую сумму. На выбор автомат предлагает два языка: азербайджанский и английский. Мне на помощь пришел наш соотечественник, который раньше покупал такую проездную карту. Пару нажатий кнопок - и можно было садиться в автобус. Для сравнения: таксисты могут запросить за проезд и 20 манат. Но не стоит списывать со счетов, что на беспечности туристов хитрецы попытаются нажиться. В экспрессе стоимость проезда фиксированная - чуть больше одного маната (по нынешнему курсу 1 манат приравнивается к Br1,93).

Едва ли не первое, что поисковики выдают о Баку, - это город ветров. Поэтому было решено начать знакомство с ним с набережной. Вот где можно ощутить силу стихии. Выйдя на улице 28 Мая, я направилась в сторону каспийского побережья, чтобы сразу же погрузиться в ритм жизни столицы.

В будний день трафик в городе сумасшедший. Местные водители отличаются своеобразной манерой вождения - они постоянно сигналят друг другу. Что особенно удивит белорусов - дорогу многие пересекают на красный, а то и вовсе не по переходу, даже через четыре полосы. Такое положение вещей устраивает и водителей, и пешеходов.

В день приезда светило солнце и на бакинской набережной было практически безветренно. В голове мелькнула мысль, что это не соответствует отзывам. Все сошлось чуть позже. ***Несколько дней во второй половине марта выдались по-настоящему "улетными". Порывы ветра удивляли даже местных жителей. Но прохладная весенняя погода не повлияла на теплоту приема.***

Торговцы моментально определяют туристов, обращаются, но ненавязчиво. Очень часто завязывается короткая беседа: кто ты, откуда. Будьте готовы услышать, что азербайджанцам известно о Беларуси. В перечне обязательно будут "бульба" и "Батька - молодец!". Далее могут быть озвучены уже личные впечатления. Например, один из торговцев в Старом городе поинтересовался, не привезли ли белорусы с собой шоколадки "Коммунарки" или "Спартака". Брутальный седовласый мужчина с детской непосредственностью признался: "Как же я их обожаю! Будешь снова в Баку, привези, а!". Мы с собой привезли шоколадные конфеты . Только своих обладателей сладости нашли немного раньше, как и магниты с символами Беларуси. Теперь они красуются на нескольких бакинских холодильниках.

По словам моих собеседников, в Азербайджане ценят белорусские продукты, они славятся качеством. На полках даже маленьких магазинчиков можно увидеть наши молоко, сметану, творог, сыры. Смею предположить, что это показатель, потому что азербайджанцы и сами талантливые сыроделы. В крупных супермаркетах ассортимент товаров представлен шире.

Точно нельзя обойти стороной азербайджанскую кухню. Что стоит обязательно попробовать, подсказывали сами бакинцы: кутабы с разными видами начинок, сочную долму, согревающий суп довгу, жареную рыбу, мясо... Перечислять можно бесконечно. Мне порекомендовали заказать в ресторане азербайджанский хинкал. Однако не удалось осилить и половины блюда. Было невероятно стыдно, вдруг люди подумают, что невкусно. Дело в другом: очень сытно. Но официанты и повара остались довольны и с улыбкой похвалили: мол, молодец, съесть все блюдо могут несколько человек.

В Баку царит особая атмосфера. Город очарователен в любое время суток. В его старой части органично сочетаются старинная и современная застройки. Но больше бесчисленных достопримечательностей запоминаются люди. Здесь живут, учатся и работают несколько миллионов человек. По наблюдениям, азербайджанцы очень отзывчивые и добродушные. Это подтверждают ситуации, когда туристы не могут сориентироваться в незнакомом городе, а местные жители не только подробно объясняют дорогу, но и помогают поднести чемодан и дойти прямо до нужных дверей. Такое в порядке вещей.

В Азербайджане рады гостям-белорусам. ***Едва ли не каждый на прощание говорил: дай Аллах приедешь к нам еще раз. Согласитесь, после такого отношения хочется возвращаться.***

# Увеличился товарооборот между Азербайджаном и Казахстаном

В январе-феврале 2025 года объем торговых операций между Азербайджаном и Казахстаном составил 71,9 миллиона долларов США.

Об этом сообщает Trend со ссылкой на Государственный таможенный комитет Азербайджана.

Согласно информации, это на 17,9 миллиона долларов США, или 32,2 процента больше по сравнению с аналогичным периодом 2024 года.

За отчетный период объем торгового оборота с Казахстаном составил 0,81 процента от общего торгового оборота Азербайджана.

В январе-феврале текущего года из Азербайджана в Казахстан было экспортировано товаров на сумму 12,2 миллиона долларов США. Это на 4,9 миллиона долларов, или 67,1 процента больше по сравнению с аналогичным периодом 2024 года.

В то же время в отчетный период из Казахстана в Азербайджан были осуществлены торговые операции на сумму 59,7 миллиона долларов США, что на 13 миллионов долларов, или 27,9 процента больше по сравнению с аналогичным периодом 2024 года.

Отметим, что в январе-феврале текущего года объем внешнеторгового оборота Азербайджана составил 8,9 миллиарда долларов США. Согласно информации, данный показатель по сравнению с аналогичным периодом прошлого года увеличился на 1,7 миллиарда долларов США, или на 23,2 процента.

В отчетном периоде 4,8 миллиарда долларов торгового оборота пришлось на долю экспорта, 4,1 миллиарда долларов - на долю импорта, что на 13 миллионов долларов, или 0,3 процента меньше и на 1,7 миллиарда долларов, или 69,2 процента больше, соответственно, в годовом выражении.

За отчетный период во внешней торговле сложилось положительное сальдо в размере 628 миллионов долларов, что на 1,7 миллиарда долларов, или в 3,7 раза меньше в годовом сравнении.

# В первом квартале этого года ВВП Азербайджана вырос

В январе-марте 2025 года в Азербайджане было произведено валового внутреннего продукта на 29 892,9 миллиона манатов, что на 0,3 процента больше, чем за аналогичный период прошлого года.

Согласно данным Госкомстата, добавленная стоимость в нефтегазовом секторе экономики снизилась на 3,8 процента, а в ненефтегазовом выросла на 2,5 процента.

37,0 процента производства ВВП пришлось на промышленность, 10,3 процента - на торговлю; ремонт транспортных средств, 6,8 процента - на транспорт и складское хозяйство, 5,8 процента - на строительство, 3,1 процента - на сельское хозяйство, лесное хозяйство и рыболовство, 2,9 процента - на размещение туристов и общественное питание, 1,8 процента - на информационную и коммуникационную отрасли, 21,6 процента - на другие отрасли. Чистые налоги на продукцию и импорт составили 10,7% ВВП.

ВВП на душу населения равнялся 2922,2 маната.



# Председатель правления ЗАО «AzerGold» встретился с победителем 4-го конкурса «Yüksəliş»



9 апреля председатель правления ЗАО «AzerGold» Закир Ибрагимов в рамках программы наставничества 4-го конкурса «Yüksəliş» встретился с одним из победителей проекта Асланом Гасанли.

На встрече был рассмотрен годовой план личного развития победителя конкурса, а также был проведен SWOT-анализ подопечного для определения приоритетов личного развития, выявления сильных и слабых сторон.

Закир Ибрагимов дал победителю конкурса рекомендации и указания по развитию его управленческих навыков за счет максимального использования сильных компетенций, а также по формированию и дальнейшему совершенствованию слабых компетенций и других необходимых навыков.

Поблагодарив за теплый прием, победитель конкурса Аслан Гасанли заявил, что обсуждаемые в ходе встречи темы, рекомендации и данные задания в области управления сыграют направляющую роль в раскрытии его потенциала в рамках предстоящего годичного плана личностного развития, а также в дальнейшем развитии карьеры, лидерских качеств и управленческих навыков.

Отметим, что конкурс «Yüksəliş» был учрежден Указом Президента Азербайджанской Республики господина Ильхама Алиева от 26 июля 2019 года с целью выявления и поддержки перспективных лидеров, обладающих высоким интеллектуальным уровнем и управленческими навыками, а также создания в стране банка кадровых ресурсов.

# ЗАО «AzerGold» провела межгосударственную деловую встречу в Пакистане и принял участие в международном форуме

В рамках визита делегации во главе с министром экономики Микаилом Джаббаровым в Исламскую Республику Пакистан был проведен ряд встреч и обсуждений. В рамках визита член правления – заместитель председателя ЗАО «AzerGold» Хайям Фарзалиев принял участие в Пакистанском минеральном инвестиционном форуме в Исламабаде.



На форуме была представлена информация о потенциале Пакистана в области горнодобывающей промышленности, существующих месторождениях полезных ископаемых, обсуждались вопросы эффективного использования природных ресурсов, внедрения современных технологий и инноваций, устойчивого развития горнодобывающей отрасли.

Следует отметить, что ЗАО «AzerGold», расширив свою деятельность за пределы страны и определив одной из своих основных стратегических целей превращение горнодобывающую компанию, ведет активную работу по изучению и применению прогрессивного международного опыта, укреплению сотрудничества с зарубежными странами, реализации совместных проектов.

# Universitetlərin idarə edilməsində unikal innovasiya

*"Elm haqqında çox danışmaqla elm yaranmaz".*
*E.Əmrullayev*

***İnnovasiya-innovasiya deməklə də innovasiya yaranmaz. İnnovasiyanın əsası elm, elmin əsası təhsil, hər üçünün lokomotivi isə maliyyədir.***

Bir də maliyyədən başqa, bu lokomotivi hara, niyə və necə sürməyi bilən peşəkar maşinist lazımdır.

Bizdən irəlidədir avropalılar.

Lokomotivi maşinistə tapşırır onlar.

Dünya təhsil məkanında gedən innovativ proseslərə baxış bizim universitetlərimizin nə dərəcədə geridə qalmasını bir daha əyani göstərir. Səbəblər çoxdur, bizim nə lokomotivimiz, nə də maşinistimiz rəqabətqabiliyyətli deyil.

Son 25 ildə dünya universitetləri arasında qlobal rəqabət ilbəil artır. Süni intellekt texnologiyaları dövründə bu texnologiyalara əsaslanan innovasiyalar rəqabət mühitini daha da fəallaşdırır.

Universitetlərin rəqəmsallaşması, rəqəmsal yetkinlik səviyyəsinin fasiləsiz artması rəqabət və səmərəlilik amillərini daim diqqətdə saxlamağı tələb edir.

Bu proseslər yeni innovativ həllərin yaranması, bunların sürətlə transfer edilməsini sürətləndirir.

Bu gün dünya səviyyəli universitetlər öz fəaliyyət strategiyalarını modelləşdirmək və səmərəli reallaşdırmaq üçün kompüter simulyasiya proqramlarından istifadə edirlər. Bu proqramın simulyasiya funksiyaları yüksək dərəcədə detallıdır.

Bu proqram praktik olaraq universitetin inkişafı, resursların paylanması, təhsil siyasəti və digər strateji istiqamətlər üzrə menecerlərin qərar qəbul etmə imkanı və bacarıqlarını inkişaf etdirmək, daha optimal həllər seçmək üçün nəzərdə tutulub.

Bu simulyator, universitetin fəaliyyəti, iqtisadiyyatı, tələbə axını, müəllim heyətinin idarə edilməsi və digər aspektləri müxtəlif simulyasiya vasitələri ilə analiz etməyə imkan verir. Bu, universitet



**Dos. İlham Əhmədov, təhsil üzrə ekspert**

menecerlərinə qlobal tələblər səviyyəsində universitetin fəaliyyətini dərk etməyə, strateji qərarlar verməyə kömək edir. Universitet menecerləri simulyator vasitələri ilə müxtəlif ssenarilər əsasında universitetin inkişafı üçün ən yaxşı strategiyanı seçə bilərlər.

**Proqramın xüsusiyyətləri:**

**1. Kompüter simulyatoru:** yüksək detallı və real vaxtda işləyən simulyator sayəsində menecerlər universitetin müxtəlif sahələrini idarə edə və strateji qərarlar verə bilərlər.

**2. Strateji planlaşdırma:** universitetlərin inkişafı üçün müxtəlif strategiyaların sınaqdan keçirilməsi, təhsil keyfiyyətinin artırılması, maliyyə resurslarının idarə edilməsi kimi məsələlər üzərində iş imkanı yaranır.

**3. Detallı məlumat:** hər bir qərarın nəticəsi simulyatorda real vaxtda əks olunur, bu da menecerlərə universitetdaxili proseslərə səmərəli nəzarət və analiz imkanları verir.

**4. Qərar qəbul etmə prosesi:** menecerlər universitetin inkişafını yönləndirmək üçün müxtəlif ssenarilər əsasında qərarlar qəbul edirlər.

Bu alət universitetin strateji idarə edilməsi sahəsində unikal innovasiyadır.

Universitet strategiyasının modelləşdirilməsi və reallaşdırılması üçün nəzərdə tutulan kompüter simulyator proqramı bir neçə fərqli yanaşmaya əsaslana bilər. Bu, proqramın süni intellekt (SI) əsasında işləməsi və ya avtonom olması mümkündür. Bu proqramın funksional xüsusiyyətlərindən asılı olaraq dəyişə bilər:

**1. Süni intellekt əsaslı simulyasiya**.

Əgər proqram öyrənmə, adaptasiya və optimallaşdırma xüsusiyyətlərinə malikdirsə, bu, süni intellektin istifadə edildiyini göstərir. SI əsaslı sistemlər aşağıdakı xüsusiyyətlərə sahib ola bilər:

Məlumat əsaslı təhlil– tarixi və real vaxt məlumatlarını təhlil edərək strategiya təklif edir.

Maşın öyrənməsi (ML) – keçmiş qərarlardan öyrənərək daha yaxşı proqnozlar verir.

Agent əsaslı modelləşdirmə – fərqli ssenariləri sınaqdan keçirmək üçün intellektual agentlər yaradır.

Ssenari planlaması və adaptasiya – universitetin müxtəlif şərtlərə uyğun strategiyalarını optimallaşdırır.

**2. Avtonom simulyasiya.**

Əgər proqram öncədən müəyyən edilmiş qaydalara və alqoritmlərə əsasən işləyirsə, yəni dinamik öyrənmə və adaptasiya etmirsə, bu zaman o, avtonom sistem sayılır.

**Avtonom sistemlər adətən:**

***- əvvəlcədən proqramlaşdırılmış qərar mexanizmlərinə əsaslanır;***

***- statik verilənlərlə işləyir və yeni situasiyalara avtomatik uyğunlaşmır;***

***- sadə "əgər-onda" qaydaları ilə işləyən simulyasiya mexanizmlərinə malikdir.***

***Əgər proqram istifadəçi məlumatlarını təhlil edir, yeni strategiyalar yaradır və zamanla inkişaf edirsə, bu sistem SI əsaslıdır. Əgər proqram sadəcə əvvəlcədən müəyyən edilmiş modellərə əsaslanaraq nəticələr göstərirsə, bu, avtonomdur.***

# Daşkəsən rayonunda mövcud olan abidələrə məlumat lövhələri quraşdırılıb

"AzerGold" QSC-nin təşəbbüsü və təşkilatçılığı, Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin dəstəyi ilə "Daşkəsən rayonunda tarixi-mədəni abidələrin tanıdılması" layihəsi çərçivəsində rayon ərazisində mövcud olan ölkə və yerli əhəmiyyətli tarix-memarlıq və arxeoloji abidələr üçün məlumat lövhələri hazırlanaraq quraşdırılıb.

QSC-nin Sosial təsir və məsuliyyət üzrə siyasəti çərçivəsində icra edilən layihədə əsas məqsəd aktiv hasilat və istehsalat fəaliyyəti həyata keçirilən Daşkəsən rayonunun təkcə faydalı qazıntı yataqları ilə zəngin bölgə kimi deyil, həmçinin füsunkar təbiətə, memarlıq və arxeoloji abidələrə malik qədim yaşayış məskənlərindən biri kimi tanıdılmasına, mədəni irs nümunələrimizin mühafizəsinə töhfə verməkdir. Bu məqsədlə icra edilən layihə Daşkəsən rayonunda yerləşən, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2001-ci il 2 avqust tarixli 132 nömrəli Qərarı ilə dövlət mühafizəsinə götürülmüş 46 ədəd tarix-memarlıq abidəsini əhatə edib.




Belə ki, layihə çərçivəsində "AzerGold" QSC və Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin nümayəndələrinin iştirakı ilə 34 ədəd ölkə əhəmiyyətli arxeoloji abidə, 10 ədəd yerli əhəmiyyətli memarlıq abidəsi, 1 ədəd ölkə əhəmiyyətli memarlıq abidəsi və 1 ədəd yerli əhəmiyyətli monumental və xatirə abidəsi məlumat lövhəsi ilə təmin edilib.

Qeyd edək ki, icrasına 2022-ci ildə başlanılan "Daşkəsən rayonunda tarixi-mədəni abidələrin tanıdılması" layihəsi çərçivəsində rayon ərazisindəki qədim memarlıq və təbiət abidələrinin fotoçəkilişi həyata keçirilib, həmin materiallar əsasında "Daşkəsən abidələri" adlı təqvim-kataloq hazırlanıb və geniş ictimaiyyətə təqdim edilib. Təqvim-kataloqda qədim yaşayış məskənləri, mağaralar, körpülər, məbəd və türbələr, eləcə də onlar haqqında müxtəlif mənbələrdən toplanmış məlumatlar öz əksini tapıb.

# Ürək-damar xəstəlikləri, o cümlədən infarktlar niyə cavanlaşır?

***Mərkəzi Gömrük Hospitalının rəis müavini, həkim-kardioloqu, t.ü.f.d., Dr. Nabil Seyidov "Ürək-damar xəstəlikləri, o cümlədən infarktlar niyə cavanlaşır?" mövzusunda ətraflı məlumat verib.***

- Artan dəlillər göstərir ki, onilliklərlə müqayisədə daha çox gənc yaşda insan ürək xəstəliyindən əziyyət çəkir və pisləşən həyat tərzi vərdişləri, yəni qeyri-sağlam pəhriz və fiziki aktivliyin olmaması bunun əsas səbəbləri sırasındadır. Bəzi araşdırmalar göstərir ki, COVID-19 infeksiyası son bir neçə ildə əlavə təhrikedici faktora çevrilmişdir.

Bəlkə də ən narahatedici tendensiya odur ki, daha yaşlı insanlar arasında azalmalara baxmayaraq, gənc nəsil şəxslər arasında infarktların nisbəti bütün dünyada artmaqdadır. Həm Azərbaycanda, həm də dünyanın bütün yerlərində kardioloqlar və ictimai səhiyyə mütəxəssisləri bunu əhali sağlamlığı üçün təcili vəziyyət hesab edir. Gənclər 20-50 yaş arası şəxslərdir və hər bir ölkənin sosial, iqtisadi və digər aspektlərdən ən məhsuldar əhali qrupudur. Bu səbəbdən də, həmin yaşdakı şəxslərin xəstələnməsi və ölümü həm dərhal, həm də orta və uzunmüddətli dövrdə ölkələr üçün ciddi problemlər törədəcəkdir.

Xatırlatmaq istərdim ki, ürək dayanması və infarkt eyni anlamı vermir. Ürək dayanmasının səbəbləri çox müxtəlifdir. Ürək infarktı isə ürəyə qan axınının dayanması nəticəsində ürək əzələsinin hər hansı hissəsinin ölümü deməkdir.

Əsrlər boyu bildiklərimiz və son 50 ildə toplanan yeni sübutlar bir daha təsdiq edir ki, gənclər ürək tutması və ya infarktdan immunitetə malik deyillər, gənc və yaşlı şəxslərin miokard infarktına və insulta qarşı immuniteti yoxdur. Miokard infarktı artıq yalnız ahıl, orta yaşlı insanların xəstəliyi deyil. Lakin gənclər ÜDX-lər və xüsusilə də infarkt və insult barədə məlumatsızdır. Son 20-30 ildə xüsusilə də, maarifləndirmə daha çox yaşı 40-50-dən yuxarı insanları əhatə edib. Maarifləndirməni, sağlam həyat tərzinin təşviqi fəaliyyətlərini və erkən birincili və ikincili profilaktik müdaxilələri daha gənc yaşlılara genişləndirməklə müşahidə edilən vəziyyətdə əhəmiyyətli dönüş yaratmaq mümkündür.

**Gənclərdə infarktlar**

Ürək dayanmasına kardiomiopatiya (qalınlaşmış ürək əzələsi), ürək çatışmazlığı, aritmiya (qeyri-müntəzəm ürək döyüntüsü) və əlbəttə ki, miokard infarktı kimi



bir neçə vəziyyət səbəb olduğundan, xəstəliyin daha çox gənclərdə rast gəlinməsini öyrənmək və müəyyən etmək çətindir.

Lakin araşdırmalar göstərir ki, miokard infarktı halları gənclərdə artmaqdadır. Ümumi simptomlara sinədə ağrı və ya narahatlıq, çənə, boyun, kürək və ya qollara yayılan ağrı, nəfəs darlığı və zəiflik və ya halsızlıq hissi daxildir.

ABŞ və bir sıra digər inkişaf etmiş ölkələrdə aparılmış tədqiqatlar göstərib ki, infarkt diaqnozu qoyulmuş hər 5 nəfərdən 1-inin yaşı 40 yaş və daha aşağıdır. Ən təhlükəli tendensiya isə bu rəqəmin hər il 2% artmasıdır.

2019-cu ildə American Journal of Medicine-də nəşr olunan araşdırmadan bəlli oldu ki, 40 və daha gənc yaşda infarkt keçirmiş şəxslərin daha sonralar infarkt, insult və digər səbəblərdən ölmə ehtimalı daha yaşlı insanlarda olduğu qədərdir.

Ürək infarktı adətən kişilərdə daha çox baş verir. Lakin son araşdırmalar gənc kişilərə nisbətdə, daha çox gənc qadının infarkt keçirdiyini və onların klinik nəticələrinin daha pis olduğunu göstərir. Son 10-15 ildə infarkt səbəbi ilə ABŞ-da hospitalizasiya olunan şəxslər arasında qadınların payı əhəmiyyətli dərəcədə yüksəlmişdir.

**Gənclərdə hansı risk faktorlarına diqqət yetirilməlidir?**

ÜST və o cümlədən, Azərbaycanda Səhiyyə Nazirliyinin İSİM-i və Azərbaycan Kardiologiya Cəmiyyətinin apardığı təhlillər və tədqiqatların bir çoxu göstərir ki, ÜDX-lərinin inkişafı baxımından risk faktorları gənc yaşlarda qazanılır və məhz həyatın bu dövründə inkişaf edir. Bununla yanaşı, tədqiqatlar göstərir ki, infarkt keçirmiş gənclərdə şəxslərdə uzun illər gizli getmiş digər əsas xəstəliklər olub.

Ən ciddi və çox rast gəlinən risk faktorlarına yüksək qan təzyiqi, diabet, yüksək xolesterin və piylənmə daxildir. Bütün bu xəstəliklər və vəziyyətlər hamısı oksigenlə zəngin qanı ürəyə daşıyan arteriya və digər qan damarlarını tıxaya və zədələyə bilir.

Vurğulanmalıdır ki, diabeti olan xəstələrdə ürək xəstəliyinin inkişafı riski 2 dəfə artmış olur. Və diabetlə bağlı damar və digər orqan zədələnmələri daha erkən yaşlarda başlayır, lakin uzun illər gizli qalır.

Digər tərəfdən, yüksək xolesterin və ya lipidlər səviyyəsi yüksək olan insanların sayını dəqiq biməsək də (çünki laborator analizlərə gənclər çox az cəlb olunur), həm genetik risklərin mövcudluğu, həm yarımfabrikatlı qidaların istehlakının və kompüter qarşısında oturaq həyat tərzinin artması, tərəvəz qəbulunun azalması ilə lipid pozuntularının daha çox yayılmış olduğunu düşünmək mümkündür.

2020-2022-ci illər əlavə təhdidi ortaya qoymuşdur. Belə ki, araşdırmalardan biri göstərib ki, pandemiyanın ilk ili ərzində infarktdan ölümlər 14% artmış və onların böyük qismi məhz 25-44 yaşında olanların payına düşmüşdür.

Əlbəttə ki, COVID-19 xəstəliyi orqanizmdə müxtəlif səviyyəli iltihab proseslərini aktivləşdirir, qanın daha qatılaşmasına və tromboza meyilliyini artırır. Bu isə SARS-CoV-2-yə yoluxmuş insanlarda laxtalanmanın artması, damarların tıxanması və infarkt riskini yüksəltmiş olur.

Tütünçəkmə və alkoqollu içkilərdən istifadə, müxtəlif narkotik maddələrdən istifadə kimi digər amillər də gənclərdə insanlarda infarkt riskinin artması ilə əlaqələndirilib. Problem daha çox gənclərin öz risklərinin fərqində olmamaları ilə bağlıdır. Lakin ailə həkimləri, terapevtlər və əlbəttə ki, kardioloqlar ürək xəstəliyi olan gəncləri effektiv şəkildə qiymətləndirmək və müalicə etmək məsələlərini diqqətdə saxlamalıdırlar. Həkimlər də, ənənəvi olaraq gənc xəstələrdə ÜDX "az və nadirdir" düşüncəsinin caynaqlarından qurtulmalıdırlar.

Bir çox peşəkar cəmiyyətlərin tövsiyələrinə görə qanda lipidlərin səviyyəsinin ilk dəfə 15 yaşında, daha sonra isə hər 5 ildən bir yoxlanması qeyd olunsa da, buna riayət edən çox azdır. Digər tərəfdən, son illərdə risk faktorları və yanaşı xəstəlikləri olan, SCORE2 və ya SCORE2+diabetes xalı yüksək olan şəxslərdə lipidlərin səviyyəsinin daha aşağı saxlanması tövsiyəsinə də istənilən az hallarda nail olunur.

**Hazırladı:**
**Dilarə Zamanova,**
**Mərkəzi Gömrük Hospitalının PR mütəxəssisi**

# 55 nömrəli "Bakcell" avtomobili nüfuzlu sürət yarışında

İnnovasiya və sürət lideri "Bakcell"in dəstəyi ilə azərbaycanlı pilot Gülhüseyn Abdullayev 4-6 aprel tarixlərində Dubay şəhərində keçirilən "Gulf Radical Cup" yarışında iştirak edib. "Bakcell" brendi altında yarışda iştirak edən 27 yaşlı təmsilçimiz qatıldığı turnirin bütün mərhələlərində uğurlu çıxışı ilə yadda qalıb.

Qeyd edək ki, avtomobil nömrəsi "Bakcell" brendinə uyğun olaraq 55 nömrə olan həmyerlimiz yarışın standartlarına müvafiq 1.5 motor həcmli, 232 at gücü qüvvəsinə malik maşınla çıxış edib.




"Bakcell" müxtəlif ölkələrdə enerji, telekommunikasiya, yüksək texnologiyalar və tikinti sahələrində fəaliyyət göstərən "NEQSOL Holding" beynəlxalq şirkətlər qrupunun tərkibinə daxildir.

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Elşən Hacızadə, Ədalət Muradov, Bəyalı Ataşov, Vahid Novruzov, Rəsul Balayev, Süleyman Qasımov, Zahid Məmmədov, Elşad Səmədzadə, Qüdrət Kərimov, Məhiş Əhmədov, Aydın Hüseynov, Abbas Əliyev

www.iqtisadiyyat.com

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500